# Xarici dillər təmayüllü lisey və gimnaziyaların 2018-2019-cu dərs ilinə aid nümunəvi tədris planlarının təsdiqi haqqında Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikasının xarici dillər təmayüllü lisey və gimnaziyalarında təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının tədris Azərbaycan və rus dillərində aparılan xarici dillər təmayüllü lisey və gimnaziyalarının 2018-2019-cu dərs ilinə aid nümunəvi tədris planları və tədris planlarına dair “Qeydlər” təsdiq edilsin.

2. İnformasiya şöbəsi (E.Məmmədov) bu əmrin əlavələrlə birlikdə «Azərbaycan müəllimi» qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

3. Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

***Ceyhun BAYRAMOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***14 sentyabr 2018-ci il***

***F-644***

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*14.09.2018-ci il tarixli*
*F-644 nömrəli əmri ilə təsdiq edilmişdir*

**Xarici dillər təmayüllü lisey və gimnaziyaların 2018-2019-cu dərs ilində**
**I-XI sinifləri üçün tədris planı**

**(tədris Azərbaycan dilində)**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Azərbaycan dili | 9 | 10 | 10 | 10 | 5 | 4 | 4 | 3 | 2 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 3 | 2 | 2 |
| 3 | Xarici dil | 2 | 3 | 3 | 3 | 4 | 4 | 4 | 4 | 4 | 6 | 6 |
| 4 | İkinci xarici dil | | | | | 2 | 2 | 2 | 1 | 1 | 3 | 3 |
| 5 | Riyaziyyat | 4 | 4 | 4 | 4 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 6 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 7 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 8 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 9 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 10 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 11 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 12 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 14 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 15 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 16 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 17 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **22** | **24** | **26** | **26** | **27** | **31** | **33** | **33** | **34** | **36** | **36** |
| **1** | Üslubiyyat | | | | | | | | | | **1** | 1 |
| **2** | Nitq mədəniyyəti | | | | | **1** | **1** | **1** | **1** | **1** | | |
| **Dərsdənkənar məşğələlər** | | **1** | | | | | | | **1** | | | |
| **Yekun:** | | **23** | **24** | **26** | **26** | **28** | **32** | **34** | **35** | **35** | **37** | **37** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*14.09.2018-ci il tarixli*
*F-644 nömrəli əmri ilə təsdiq edilmişdir*

## Xarici dillər təmayüllü lisey və gimnaziyaların 2018-2019-cu dərs ilində I-XI sinifləri üçün tədris planı

**(tədris rus dilində)**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Rus dili | 9 | 10 | 10 | 10 | 5 | 4 | 4 | 3 | 2 | 3 | 3 |
| 2 | Azərbaycan dili-dövlət dili kimi | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 3 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 3 | 2 | 2 |
| 4 | Xarici dil | 2 | 3 | 3 | 3 | 4 | 4 | 4 | 4 | 4 | 6 | 6 |
| 5 | İkinci xarici dil | | | | | 2 | 2 | 2 | 1 | 1 | 3 | 3 |
| 6 | Riyaziyyat | 4 | 4 | 4 | 4 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 7 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 8 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 9 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 10 | Fizika | | | | | | 1 | 2 | 2 | 3 | 2 | 2 |
| 11 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 12 | Biologiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 15 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 16 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 17 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| **Cəmi:** | | **24** | **26** | **28** | **28** | **29** | **33** | **35** | **35** | **36** | **38** | **38** |
| **1** | Üslubiyyat | | | | | | | | | | **1** | 1 |
| **2** | Nitq mədəniyyəti | | | | | **1** | **1** | **1** | **1** | **1** | | |
| **Dərsdənkənar məşğələlər** | | **1** | | | | | | | **1** | | | |
| **Yekun:** | | **25** | **26** | **28** | **28** | **30** | **34** | **36** | **37** | **37** | **39** | **39** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*14.09.2018-ci il tarixli F-644 nömrəli əmri ilə təsdiq*
*edilmişdir.*

**Xarici dillər təmayüllü lisey və gimnaziyaların**
**tədris planlarına dair qeydlər**

1. Şagirdlərin sayı 20 və daha çox olan siniflər aşağıdakı fənlərin tədrisində iki qrupa bölünür:

1.1. Tədris rus dilində aparılan I-XI siniflərdə “Azərbaycan dili”, tədris dilindən asılı olmayaraq I-XI siniflərdə “Xarici dil” , V-XI siniflərdə “İkinci xarici dil”, V-IX siniflərdə “Texnologiya”, V-XI siniflərdə fiziki tərbiyə, X-XI sinifdə “İnformatika” fənni üzrə praktik məşğələlər.

2. Tədrisi səmərəli təşkil etmək məqsədilə tədris planlarında seçmə fənlərə, dərsdənkənar məşğələlərə, fakültativ, fərdi və qrup məşğələlərinə ayrılmış saatlardan aşağıdakı kimi istifadə olunur:

2.1 Dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə I sinifdə 1 (bir) saatı, II-IV siniflərdə 2 (iki) saatı, V-VIII siniflərdə 1 (bir) saatı, IX sinifdə 2(iki) saatı “Xarici dil”in tədrisinə verilmişdir. Dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə V-VII siniflərdə 1 (bir) saatı “İkinci xarici dil”in tədrisinə verilmişdir.

2.2. Dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı VIII siniflərdə “Qarabağın tarixi” kursunun tədrisinə ayrılır.

2.3. V-IX siniflərdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı “Nitq mədəniyyəti”nin tədrisinə verilmişdir.

2.4. X-XI siniflərdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 2 (iki) saatı “Xarici dili”nin, 1 (bir) saatı “İkinci xarici dil”in, 1 (bir) saatı “Üslubiyyat”ın tədrisinə verilmişdir.

.

Azərbaycan müəllimi.- 2018.- 21 sentyabr.- S.4.